ədalət.-2019.-28 iyun.-S.5.



# Sənətkarın iradəsi - onun ilhamıdır

Əlibala Zaloğlu,
Bakı Qızlar Universitetinin müəllimi, AYB-nin üzvü

**(əvvəli ötən sayımızda)**

**Yəni kim kimdir- sualına cavabdan əlavə, hətta mən kiməm- sualına da oxucu cavab tapır. Onun bir çox müsbət qəhrəmanları, elə qadın obrazları var ki heyran olmaya bilmirsən. Yazıçının özünün də heyranlıqla yaratdığı qadın obrazları ilə tanış olarkən, onların daxili monoloqlarını dinləyərkən yadıma məşhur bir film düşür. O film ki, əsərin baş qəhrəmanı da bir qadın- rühani və cismani gözəlliyi ilə şəfəq saçan bri şahzadədir. Di gəl ki, bu şahzadənin taleyi, bəxti üzünə gülmür. Qonşu əyalətlərin knyazları bu şahzadəni ələ keçirmək üçün bir-birlərilə qanlı savaşlar aparırlar. Hər iki tərəfdən ölüm-itim sayı həddini aşanda, qızın atası sanki yeganə çıxış yolunu tapmış kimi rahat nəfəs alır; qızı öldürmək lazımdır!**

Lakin bu işi kimə tapşırırsa, heç kəsin gözəl Krişnanı öldürməyə əli qalxmır. Belə olan halda şahzadə özü intihar edir və xalqını yadelli qəsbkarların qanlı caynağından qoparır.

Ağarəhim müəllimin müsbət qadın obrazları da bu gücdə, bu qüdrətdədir. Qarabağ müharibəsi zamanı düşmən əlinə keçməmək üçün özünü sıldırım qayalardan, uçurumlardan ataraq qeyrət və şərəf mücəssəməsi olan qadınlarımızın, qızlarımızın, analarımızın obrazını yazıçı əsərlərində əbədiləşdirərək onları nəsillərin mənəvi yaddaşına təhvil verib.

...Yazdığım bu məqalədə sözsüz ki yazıçının bütün əsərləri barədə ayrı-ayrılıqda qısaca fikir söyləmək istəsəm belə, buna imkanım yoxdur. Ancaq onu deyə bilərəm ki, "Səfalət", "Girdab", "Cinayət və etiraf", "Haray", "Xəyanət", "İkili dünyam", "Qoşa qanad" kimi əsrələrində cəmiyyətin iç üzünü açıb göstərən nasir daha böyük sevgiyə layiqdir. Qeyrət, ləyaqət, şərəf kimi ən ali hisslər obrazların daxili aləmində parlaq bir inci kimi bərq vurmada. Oxucu həmin parlaqlığın izi, sorağı ilə işığa gedən yolu tapır.

Cəmiyyətin işığa axınını daha çox ədəbiyyat, ürəklərə yol tapan sənət təmin edir. Ümumiləşmiş halda desək, bir tərəfdə zülmət, bir tərəfdə işıq dayanıb. Yazıçı bu iki qütbü qarşılaşdırır və bu qütblər arasında gedən ədalət, vicdan çarpışmalarını ən xırda detallarına qədər sənət güzgüsündə xalqına, millətinə göstərə bilir.

Bu fikrimi tamamlamaq üçün Ağarəhim müəllimin çevik qələmə sahib, isti-isti yazmağı bacaran bir müəllif olduğunu da vurğulamalıyam. Bəlkə də elə buna görə onun əsərləri bu qədər səmimi qarşılanır. Çünki ilkin həyəcan, ilkin təəssürat həmişə öz təbii boyasında olur. Bir var hadisəni müşahidə edib zaman baxımından ondan çox da uzaqlaşmamış qələmə alasan, bir də var, illər ötə, sonra yazasan. Hər iki halda qüdrətli yazıçı ortaya sevilən bir sənət əsəri qoya bilər. Amma mən birinciyə üstünlük verirəm. Ağarəhim müəllimin də Qarabağ hadisələrini əks etdirən əsərləri bəlkə də ona görə öz səmimliyini, həyatiliyini qoruyub saxlaya bilir. Çoxları iddia edir ki, müharibə mövzusunda əsərlərin yazılması üçün qərinələr ötməlidir. Amma Ağarəhim Rəhimov sübut etdi ki, elə müharibə gedə-gedə də bu mövzuya dair bədii baxımdan sanballı, ədəbi siqləti olan əsərlər ortaya qoymaq mümkündür. Görkəmli yazıçı, pedaqoq Ağarəhim Rəhimov yaradıcılığı dediklərimə yazılı sübutdur.

... Özəl bir xüsusiyyətimin də bu yazıda karıma gəlməsi məni sevindirir. Sevdiyim yazıçıların əsərlərindən daha çox onların müsahibələrini həvəslə oxumağım var. Çünki yazıçıya ünvanlanmış suallar yazıçının daxili dünyasını kəşf etməkdə müqayisəsiz bir yardımçı rolunu oynayır. Ən çox qorxduğunuz şey nədir?- sualının cavabı müəllifin əsərlərinin ideyaamalının bütöv məcmusunu başa düşməyə, qavramağa bir vasilədir. Yazıçı suala belə cavab verir: "Müxtəlif şəraitdə, müxtəlif situasiyalarda müxtəlif cavablar verək olar. Adi şəraitdə tərəddüt etmədən mən bu suala- "anaların göz yaşı", "xəyanət", "vicdanın susması"... kimi cavablar da verə bilərəm. Bəzən elə ekstramal şərait yaranır ki bu cavabların hər biri öz əhəmiyyətini azaldır- desəm, yəqin ki məni qınamazsınız. Ən qorxulu şey insandır da- deyə bilərəm. Əslində, yuxarıda sadaladıqlarım da insanla, onun fəaliyyətilə bağlıdır. Mən "Qüdrətdən doğan nur" kitabımda demişəm: "Ağıl cəhalətə, zəka qəbahətə xidmət edə bilməz. Bəs ağıldan kənar işlər necə? Məncə, belə halda insanlar heyvanların ayaqları altında dayanırlar. Əfqanıstanda, İraqda insanlar (qocalar, qadınlar, uşaqlar, hətta ana bətnində olan məxluqlar) qırılırlar. Onları kütləvi şəkildə məhv edirlər. Bunlara nə ad vermək olar?- özünüz deyin. Bir qarışqanı, çibini yarada bilməyən insan dünyanı qan nəhrində boğur. Əlbəttə, dediklərim mənim subyektiv fikirlərimdir. Hörmətli oxucular mənimlə razılaşmaya da bilərlər. Onlarla mübahisəyə girməyə də təşəbbüs göstərmirəm. Bir anlığa heyvanla insanın xisləttindəki fərqlərə nəzər salın. Öz cinsindən olanla döyüş zamanı maral geri çəkilir, canavar quyruğunu bulayır, meymun üzünü geriyə çevirir və vuruşun dayandırılması xəbərdarlığını verir. Rəqibi dərhal vuruşu saxlayır. Bununla da döyüş səhnəsi sona yetir. Bəs insan neyləyir? İnsan daha da əzazilləşir. Onda rəqibinə nifrət hissi alovlanır. Onu daim təqib edir, alçaldır, hətta bəzən öldürmək üçün fürsət axtarır. İndi özünüz nəticə çıxarın. Ən qorxduğum şey nə ola bilər?"



...Maraqlı tərəfi burasıdır ki, Ağarəhim müəllimin qorxduğu da insandır, sevdiyi də. Və bu hal paradoks hesab olunsa da, o, bu suala da yazıçı idrakı, pedaqoq məharətilə cavab verir: "İnsanın fəziləti gözəldir, cinayəti dəhşət".

Müstəqillik dövrünün hadisələrini özündə əks etdirən povest və hekayələrin müəllifi Ağarəhim Rəhimov bir çox səciyyəvi sənətkarlıq xüsusiyyətlərilə yanaşı- şəxsiyyət və sənət vəhdəti yaradan çox az sayda olan yazıçılarımızdan, alimlərimizdən biri kimi də nəsillərin yaddaşına köçəcək. Əsərlərinin hamısını oxumasam da, bir çoxunu oxuduğuma görə özümü şanslı hesab edirəm. Çünki həyat həm də kitablardadır. İnsana dünyagörüşünü zənginləşdirmək üçün dünyanı gəzmək vacib olduğu kimi çox oxumaq da vacib bir tələbatdır. Hər insan bir kəşfdi, hər kitab bir dünyadı. Mənalı, məzmunlu, özünün bədii-estetik idealı olan insanı kəşf edə bilməsən, onun yaradıcılığı ilə tanış olmasan, heç şübhəsiz ki, özün də natamam görünərsən. Necə ki Ağarəhim Rəhimov yaratdığı obrazları natamam yaratmayıb. Yazıçının özünün də ifadə etdiyi kimi, əsərlərinin nüvəsində ən çox qorxduğu və ən çox sevdiyi insan dayanır- yaranmışların əşrəfi olan insan. Sözün qüdrətinə arxalanan ədibin məqsədi, əsərlərindəki başlıca qayə insanın ruhani görkəmini formalaşdırmaq, onu kamilləşdirməkdir.

Yazıçı cəmiyyəti sağlam, insanları əqidəli, məsləkli, dürüst görmək istəyir.

Mənə elə gəlir ki, insan üçün sənət zirvəsinə yüksəlmək özü də bir meracdır. Yazıçı o yüksəklikdən cəmiyyətə baxmasa, qələmə and içə bilməz, and içdiyi qələmlə yazı yaza bilməz. Yalnız o zirvədən baxanda təkcə cəmiyyətin yox, hətta toplumu yaradan ayrı-ayrı fərdlərin də iç dünyasını bəsirət gözü olan sənətkar görə bilir və görür. Görməsə, deməz. Deməz ki, insan öz düşmənini bütün hallarda öz içərisində axtarmalıdır.

Bir də ki, insanın könül dünyası bir şumdu, bir əkin yeridir. Ora sağlam toxum səpsən, sağlam da bar götürərsən. Ağarəhim Rəhimov bütün əsərlərində sözün ruhuna sevgi toxumu səpir. İnsanalrın nicatı, səadəti naminə daim şövqlə, gənclik ehtirası ilə qələm çalır. O xoşbəxtdir ki, təkcə bir yazıçı kimi yox, həm də bir müəllim, artıq Respublikada yetərincə nüfuzlu bir təhsil ocağının rəhbəri, bir şəxsiyyət, ictimai fikrin hesablaşdığı bir cəmiyyət adamı kimi də sevilməkdədir. Onun rəhbəri olduğu Bakı Qızlar Universiteti isə elə həqiqətən də təbiətində şahzadəlik olan bir Azərbaycan qızına xas saflıqda, duruluqdadır. Burdakı şəffaf təhsil gələcəyin alimi, yazıçısı, jurnalisti, müəllimi, anası olan qızlarımıza bəri başdan etibarlı bir zəmanətdir. Xalqın bir yaxşı sözü də yadıma düşür. Sərkərdə qoçaq olsa, heç verməz ordu bada.

Ağarəhim müəllimin rəhbərlik etdiyi universitetdə çalışan müəllimlər onun tələblərinə cavab verən tanınmış simalardır və mən əminəm ki, Ağarəhim müəllim onların əqidəsinə, məsləkinə bələd olmasa, onlarla birlikdə olmaz.

Hər halda, elin gözü tərəzidir. Qızlar Universiteti də Azərbaycan təhsilində müəllifinin dəmir iradəsi hesabına yaradılmış öz işığı, ziyası ilə seçilən bir elm məbədidir.

**Ağarəhim Rəhimov yaradıcısı olduğu bu təhsil ocağının simasında olduğu kimi, digər əsərlərində də öz iradəsinin heykəlini qoyub...**

**...Sənətkarın iradəsi- onun ilhamıdır.**